**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**

**KOLLEGİYASI**

**QƏRAR**

**№**

**Bakı şəhəri** **07 avqust 2020-ci il**

**"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının struktur bölmələrinin əsasnamələrinin təsdiq edilməsi haqqında"Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyasının 2018-ci il 09 iyul tarixli, 49-4 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Dövlət İdarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 mart 2020-ci il tarixli Sərəncamında dövlət nəzarətinin təşkili və icra intizamına əməl olunması istiqamətində görülən işlərin səmərəliliyinin artırılması bu sahədə daha əhatəli və çevik mexanizmlərin yaradılmasına ehtiyacın olduğu qeyd edilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin 12 iyun 2020-ci il tarixli, 98 saylı əmri ilə Komitədə "Daxili nəzarət" sektorunun yaradılması üçün aidiyyəti üzrə müvafiq tədbirlərin görülməsi tapşırılmışdır.

12 iyun 2020-ci il tarixli, 98 saylı əmrin icrasının təmin edilməsi məqsədi ilə Komitə sədrinin 20 iyul 2020-ci il tarixli 161 saylı əmri ilə "Daxili nəzarət" sektoru yaradılmışdır.

Həmçinin "Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 10 dekabr 2018-ci il tarixli, 393 nömrəli Fərmanından irəli gələrək, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin 01 noyabr 2019-cu il tarixli 313 saylı əmri ilə Hüquqi-təminat şöbəsinin "Ölkələrarası övladlığa götürmə" sektoru ləğv edilərək "Məişət zorakılığının qarşısının alınması üzrə" sektor yaradılmışdır.

Komitədə struktur dəyişikliklərinin keçirildiyini nəzərə alaraq, Komitə Aparatının fəaliyyəti haqqında əsasnamələrinə dəyişikliklərin edilməsi zərurəti yaranmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 14.2-ci və 17-ci bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyasının 2018-ci il 09 iyul tarixli, 49-4 nömrəli Qərarı ilə təsdiq edilmiş Komitənin Hüquqi-təminat şöbəsinin və Kadr və Kargüzarlıq şöbəsinin əsasnamələri (1 və 3 nömrəli əlavələr) yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).
2. Daxili nəzarət sektoruna tapşırılsın ki, əsasnamədən irəli gələn məsələlərin həyata keçirilməsini təmin etsin və Komitənin fəaliyyətinə nəzarətin təkmilləşdirilməsi üçün təkliflər hazırlayıb Komitə rəhbərliyinə təqdim etsin.
3. Kadr və Kargüzarlıq şöbəsinin müdiri Elmira Qurbanlıya tapşırılsın ki, Qərarın surətini Komitənin aidiyyəti şöbələrinə təqdim edilməsini təmin etsin.
4. Qərarın icrasına nəzarət Komitənin sədr müavinləri, Sədaqət Qəhrəmanovaya, Aynur Sofiyevaya və aparatın rəhbəri Ceyran Rəhmətullayevaya həvalə edilsin.

**Kollegiyanın sədri** **Bahar Muradova**